# Türk tarixi və mifoloji dünyagörüşündə atlar



**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

**əvvəli ötən sayımızda**

***Beləliklə dəruslara mərkəzləşmiş dövlət qurub verən tatarlaruzunmüddətlik istirahət və fasilədən sonra təkrar öz dövlətlərinin sahibinə çevriləcəklər. Buradan sonrasını isə gəlin böyük rus knyazı və mütəfəkkiri, təmiz və əsl türk qanının daşıyıcısı olan knyaz Trubetskoyun dili ilə deyək. M.S.Trubetskoy ‘Rus mədəniyyətində Turan elementləri” adlı əsərində yazır: ‘Bütün müasir Rusiya ərazisinin vahid bir dövlət hakimiyyəti altında təşəkkül tapması ruslar-slavyanlar tərəfindən deyil, türklər-monqollar tərəfindən həyata keçirilmişdir. Rusların Şərqə yayılması bir sıra Turan qəbilə və tayfalarının ruslaşması ilə əlaqədardır. Rusların türklərlə birgəyaşayışı qırmızı xətt kimi bütün rus tarixindən keçirg Elə bir rus tapmaq çətindir ki, onun qanında türk qanı olmasın!”***

M.S.Trubutskoy türklərin və rusların xarakter bənzərliyinə də diqqət yetirərək onları psixoloji tip olaraq eyniləşdirir. Müəllif yazır:”Türk mütənasibliyi, aydınlığı və sabit tarazlığı sevir. Lakin eyni zamanda, sevir ki, bunlar hazır verilmiş olsun”. İndi gəlin ruslara diqqət edək. Ruslar da xarakter və psixologiya baxımından türklər kimi olduqları üçün yuxarıda sadaladığımız şeyləri eyni dərəcədə sevirlər. Ona görə dətatar-monqolların onlara verdiklərini, hazır dövləti də ruslar böyük həvəs və məmnuniyyətlə qəbul edirlər.Ancaq ruslarda hər iki superetnosun yəni, slavyan və Turan superetnosunun xarakterik xüsusiyyətləri o qədər qabarıqdır ki, bu, bəzən onlarda milli xarakterin ikiləşməsinə səbəb olur.

Ruslar spirtli içki içdikdə daha cəsarətli və döyüşkən olurlar. Bu, əslində rus ruhunda qımız içmiş tatar-türkünün təcəlli etməsi, yəhərsiz atın üstündə çöl boyu çılğınlıqla düşmənə qarşı at çapmasıdır. Ayıq olduqda isə ruslar meşədə giləmeyvə yığan və çayda balıq tutan sakit təbiətli slavyandır. Məhz bu keyfiyyətlərinə görə tarixçilər rus millətinin dövlət qurmaq bacarığına təəccüblə baxırlar. Rus dövləti bir möcüzədir! Doğrudan da keçmişi olmayan, gələcəyinin proqnozlaşdırılması isə olduqca mürəkkəb və çətin olan bir dövlət sözün həqiqi mənasında bir möcüzədir. Ancaq həm də reallıqdır. Bu möcüzə, həm də reallığa görə, görəsən, ruslar kimə borcludurlar?! Gəlin yenə nəcabətli knyaza qulaq asaqg “Turan təsirində yalnız mənfi elementlər görmək ədalətsizlik, insafsızlıq və qeyri-obyektivlik olardı. Biz öz turanlı əcdadlarımızla slavyan əcdadlarımız qədər fəxr etməliyik. Bugünümüz üçün həm onlara, həm də bunlara borcluyuq Həm də Turan psixoloji tipinə mənsub olduğumuzu dərk etməyimiz şəxsi və milli özünüdərkə can atan hər bir rus üçün vacibdir! “Və nəhayətg dövlətinin nəticəsinin nə olduğunu görmədi. İndi isə Rusiya və bütünlükdə cənub-şərq slavyanları həm də turanlıları ən yeni tarixə hamilədirlər. Bu tarix heç də uzaq olmayan gələcəkdə doğulacaqg Onun necə olacağı isə Tanrının təqdirinə qalmış! Bu doğuşdan ya Basat, ya da Təpəgöz törəyəcək. Rusiya vətəndaşı olan turanlılar öz tarixi milli-etnik və milli-siyasi coğrafiyalarına sahib çıxa bilsələr, bu doğuş Basatın doğuşu, yox, çıxa bilməsələr, Təpəgözün doğuşu olacaq. ***Qərb imperializmi düz Rusiya boyda Əfqanıstan yaradacaq! Ona görə dəRusiyanı idarə edənlər avrasiyaçılığı Putin avrasiyaçılığı zindanından çıxaraq Turan-slavyan ittifaqı avrasiyaçılığına qaldırmaq cəsarəti göstərməlidirlər. Bunun üçün vaxtilə Çin antitəbliğatına qarşı istifadə etmək üçün N.Qumilyovu zindandan çıxarıb gerçək türk tarixini yazmaq imkanı***

rək və milli-etnik kimliyimizə qarşılıqlı hörmət əsasında yeni tarixi konsepsiya və yeni siyasi ittifaq yaratmaq lazımdır. Çünki Avrasiya etnosiyasi coğrafi məkanı turanlıların göbəyinin kəsildiyi, dünyaya göz açdığı məkandır. Yalnız bu halda Qərb Təpəgözünə və Çin Hal anasına qarşı effektiv mübarizə aparmaq olar. Böyük Çölə yalnız bu şəkildə yeni nəfəs vermək olar. Yalnız bu şəkildə Çar Rusiyasının slavlyan etnosu adına ləkə olaraq yaratdığı rüsvayçı “slavyan-hay” ittifaqı biabırçılığından qurtarmaq olar.

### David Rokfellerin etirafları, yaxud yəhudi əsilli milyarder şumerləri türk hesab edir

Şumerlərlə bağlı mülahizələrimiz, şumer-türk bağlılığı bəzi hallarda ciddi qəbul edilmir. Ancaq yuxarıdakı nümunədə, das-

fikri panidealist milli romantika kimi görənlərə isə başqa bir xalqın məşhur nümayəndəsinin şumer-türk əlaqəsinə baxışı, yaxud etirafları ilə cavab verək.

Beləliklə... Bu yaxınlarda Amerikada yaşayan yəhudi multimilyarder David Rokfeller yüz ilin ən böyük etiraflarını etdi:Türklər mədəniyyətin beşiyidir və kökənləri şumerlərə qədər dayanır. Onlare.ə. 4000-ci illərdə Orta Asiyada baş verən böyük bir fəlakətdən sonra yaşadıqları yerləri tərk edibMesopotamiyaya və Rusiya üzərindən Avropaya gələn aryanlar, yəni dünyadakı ən mədəni olaraq qəbul etdiyimiz ari irqindəndir. Avropadakı finlər, macarlar kimi, bəzi millətlər də türk kökənlidir. Ayrıca, Anadoluda böyük uyqarlıqlar quran hititlər və assurların da türk kökənli olma ehtimalı yüksəkdir. E.ə. 3500-cü ildə Mesopotamiyada yaşamış olan şumerlər ilk yazını tapan, cəmiyyətdə ədaləti qurmaq üçün ilk qanunlar çıxaran və məhkəmələr quran, ilk dəfə puldan istifadə edən, vergi toplayan, ilk məktəb açan ulusdur. Yənidünya mədəniyyətinin başlanğıc nöqtəsidir. Soyları, tarixçilərimizin araşdırmalarına görə, türk mənşəlidir. Şumerlərin Ay tanrısının simvolu olan “Yarımay”bu gün Türk bayrağında istifadə olunur. Roma və Yunan mədəniyyətləri şumerlərdən olduqca çox faydalanıb. Fəqət biz bunu ört-basdır etmək üçün e.ə. 2000-ci illərdə, yəni şumerlərdən 1500 il sonra başlamış olmasına baxmayaraq, Yunan mədəniyyətinidünyadakı ilk mədəniyyət olaraq tanıtdıq. Daha da maraqlı olanı, Yunanlardan əvvəl Misir mədəniyyəti başlayıb. Mayyalar və inklər belə türklərdən 2000 il sonra mədəniyyətlərini eyni şəkildə yaradıblar. Mədəniyyətin beşiyi kimi türkləri qəbul edə bilməzdik, bu mirasa əl qoymalıydıq. Mədəniyyətin beşiyi kimi türkləri qəbul edə bilməzdik. Tam əksinə, min bir intriqa ilə bu mədəniyyət miraslarına əl qoyaraq onları bütün dünyaya bərabər, haqq-hüquq tanımayan bir cəmiyyət kimi tanıtdıq və bunda da çox uğurlu olduq. Bu gün təktanrılı bir toplum olan Türkiyədə bizim çalışmalarımız sayəsindərüşvət, oğurluq, haqsız və qeyri-qanuni gəlir mənbəyi aşırı həddədir. Əslində, insanlar tarix kitablarını açıb oxusalar, bütün həqiqətləri görəcəklər. Ancaq insan oğlu üçün eşitdiklərinə inanmaq yetərlidir. Oxumaq çox çətin gəlir.

***Mən də o ana qədər ən mədəni ulus olaraq ingilisləri görürdüm. Amma yanıldığımı öyrəndim. Buyurun...bu, Rokfellerin etiraflarıdır!Ona görə də tariximizi yenidən öyrənməli, özümüzü yenidən dərk etməliyik. Tarixi yaddaşı tam olmayan xalqın milli yaddaşı da natamamdır. Bu isə sosial fərd olaraq hər birimizdə milli natamamlıq və yaxud şəxsiyyət problemi yaradır. Ona görə də bəzən özümüzü məğlub xalq hesab edərək milli aşağılıq kompleksinə yuvarlanırıq. Bu isə tam da düşmənlərimizin arzu etdiyi haldır. Ancaq biz möhtəşəm tarixi keçmişdən gələn, tarixin özü ilə yaşıd olan, tarixin özünü yaradan böyük xalqıq!***



Uzun tarixi axtarışlar, tarixi faktların analizindən sonra Trubetskoy belə bir nəticəyə gəlir: 300 illik monqol-tatar “əsarətinin” nəticəsi güclü slavyan pravoslav dövləti olmuşdur. Pyotr tərəfindən Rusiyanın avropalaşdırılması və 200 ildən artıq davam edən Avropa əsarətinin nəticəsi isə bolşevik dövləti olmuşdur. Bu iki şəhadəti, tatar-türk və Roma-alman məktəbi şəhadətini müqayisə etdikdə görürük ki, tatar-türk məktəbi heç də pis olmamışdır”.

Burada bir şeyə təəssüf edirsən ki, nəcabətli knyaz bolşevik

***yaratmaq kimi qısqanc və xəsis olmaq lazım deyil. Heç Murad Adcıya da bu qədər əziyyət verib, qaynaqları, mənbələri gizlədərək velikorus şovinizminə lazım olacaq qədər yüngül tarixi informasiyalarla türk-slavyan ideoloji və tarixi birliyini təbliğ edəcək qeyri-sanballı kitablar yazdırmaq da məqbul və kifayət deyil. Tarixlə – keçmişlə üzləşmək vaxtıdır.*** Saka-elindən (Saxalindən), Kürelindən (Kurildən) başlamış İtilə (Volqaya) qədər, Ər-eldən (Uraldan) başlamış Tün-Aya (Tunaya) qədər tariximizi yenidən öyrənə-

tanlarımızdakı ortaq süjetlərdə bu əlaqə o qədər canlı və birbaşadır ki, bunu görməmək, fərq etməmək mümkün olmur. Bir qədər cəsarətli də olsa iddia edəcəyik ki, “Dədə Qorqud dastanı” da daxil olmaqla, kitabda təqdim etdiyimiz bütün türk dastanlarında olan süjetlər “Bilqamış” dastanından “kalka”dır. Yənimənşə etibarilə “Bilqamış”dan gəlir. Oradan köçürülmədir. Deməli, biz burada vahid milli-genetik yaddaşdan danışa bilərik və deyə bilərik ki, Turan milli-genetik yaddaşı şumer yaddaşının davamıdır. Bu

> ***Bu tarix heç də uzaq olmayan gələcəkdə doğulacaqg Onun necə olacağı isə Tanrının təqdirinə qalmış! Bu doğuşdan ya Basat, ya da Təpəgöz törəyəcək. Rusiya vətəndaşı olan turanlılar öz tarixi milli-etnik və milli-siyasi coğrafiyalarına sahib çıxa bilsələr, bu doğuş Basatın doğuşu, yox, çıxa bilməsələr, Təpəgözün doğuşu olacaq. Qərb imperializmi düz Rusiya boyda Əfqanıstan yaradacaq! Ona görə dəRusiyanı idarə edənlər avrasiyaçılığı Putin avrasiyaçılığı zindanından çıxaraq Turan-slavyan ittifaqı avrasiyaçılığına qaldırmaq cəsarəti göstərməlidirlər. Bunun üçün vaxtilə Çin antitəbliğatına qarşı istifadə etmək üçün N.Qumilyovu zindandan çıxarıb gerçək türk tarixini yazmaq imkanı yaratmaq kimi qısqanc və xəsis olmaq lazım deyil***